AZƏRBAYCAN DƏMİRYOLÇUSU

Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur | Avqust 2022-ci il 8 (7046) | İndeks 0006 Qiymət 40 qəpik

Təsisçilər: "Azərbaycan Dəmir Yolları" Qapalı Səhimdar Cəmiyyəti və Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi

# *Azərbaycan Respublikasının Prezidenti Əliyev:*

## *"Bakı-Tbilisi-Qars Avrasiyanın nəqliyyat xəritəsini təzələyib"*

**"Energetika sahəsində bu iki önəmli layihə ölkəmizin bundan sonra da uğurlu inkişafını təmin edəcək və bizə imkan verəcək ki, qeyri-neft sektorunun inkişafı ilə daha çox məşğul olaq. Hesab edirəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı nəinki ölkəmiz üçün, bölgə üçün, dünya üçün önəmli hadisə olmuşdur. Bu yol Bakıdan başlanır. Təsadüfi deyil ki, təntənəli açılış mərasimi Azərbaycanda keçirilmişdir. Uzunluğu 850 kilometrə yaxın olan dəmir yolunun 504 kilometri Azərbaycan ərazisində tikilib, bərpa edilib. Bilirsiniz ki, Azərbaycan bu yolun icrasında ən böyük maliyyə yükünü öz üzərinə götürmüşdür. Bu tarixi layihənin icrası Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirəcək və artıq çevirir. Yol açılandan sonra qısa müddət ərzində - cəmi iki ay ərzində bir çox ölkələrdən Bakı-Tbilisi-Qarsa qoşulmaq haqqında bizə müraciətlər olmuşdur. Artıq bir neçə həmkarımla bu məsələni mən şəxsən müzakirə etmişəm. İndi müvafiq göstərişlər verilmişdir ki, bir çox ölkələrlə işçi qrupları yaradılsın və bu xəttə qoşulmaq istəyənlərin yük potensialı təhlil edilsin. Əlbəttə ki, biz bütün tərəfdaşlarla bu layihə çərçivəsində uğurlu əməkdaşlıq etməyə hazırıq.**

Şimal-Cənub nəqliyyat dəhlizinin icrası istiqamətində önəmli addımlar atılmışdır. Azərbaycan öz üzərinə düşən vəzifələri icra edib, İran sərhədinə qədər dəmir yolunun tikintisini təmin edib, eyni zamanda, dəmir yolu körpüsünü də inşa edib. Beləliklə, Azərbaycan öz ərazisində bu layihə üzrə bütün lazımi tədbirləri görüb və layihənin ümumi icrası ilə bağlı da öz töhfəsini verməyə hazırdır".

* * *

"Bu il Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyəti üçün çox önəmli il olacaq. Demək olar ki, Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətinin birinci ili olacaq. Mən qeyd etmişəm ki, bu yola böyük maraq var və artıq Bakı-Tbilisi-Qars Avrasiyanın nəqliyyat xəritəsini təzələyib və Azərbaycan bu sahəyə öz töhfəsini verib.

Mən giriş sözümdə qeyd etdiyim kimi, Azərbaycan ərazisində Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün işlər görülüb. Ancaq biz böyük yüklər gözləyirik ki, bu yolla daşınacaq. Ona görə, mövcud olan dəmir yolu daha da yaxşı vəziyyətə gətirilməlidir. Yəni, dəmir yolunun sürəti artmalıdır. Bu məqsədlə biz Bakı-Yalama və Bakı-Astara dəmir yolunun tədricən yenidən qurulması, təmiri ilə bağlı işlər görməliyik. Bu ilin investisiya proqramında Bakı-Yalama dəmir yolunun təmiri, yenidən qurulması məsələsi əksini tapıb. Bunu biz başlayırıq. Eyni zamanda, Bakı-Astara dəmir yolunun xüsusilə dənizə yaxın olan hissəsinin köçürülməsi məsələsi də öz həllini tapacaq. Yəni, texniki-iqtisadi əsaslandırma hazırlanmalıdır. Bunun həm turizm üçün böyük əhəmiyyəti olacaq, çünki sahilin böyük hissəsi indi dəmir yolu infrastrukturu ilə zəbt edilib, eyni zamanda, mövcud yolla istədiyimiz qədər yükləri daşımaq mümkün olmayacaq. Bu, önəmli layihədir. Turizmin inkişafı üçün bir layihəni də biz dövlət investisiya proqramına salmışıq. Bu da Ləki-Qəbələ dəmir yolunun tikintisidir. Beləliklə, Qəbələ şəhərinə dəmir yolunun çəkilişi təmin ediləcək. Bu gün Qəbələ Bakıdan sonra Azərbaycanda ikinci turizm mərkəzidir. Əlbəttə ki, dəmir yolunun Qəbələyə çatdırılması turistlərin axınını daha da sürətləndirəcək.



Növbəti illərdə Şahdağ xizək kurortuna da dəmir yolunun çəkilişini təmin etmək bizim planlarımızdadır. Bu layihəni biz əlbəttə ki, Bakı-Yalama dəmir yolu ilə uzlaşdırmalıyıq. Çünki Şahdağa dəmir yolu ilə getmək üçün gərək o sürətli yol olsun. İndi Bakı-Yalama yolu o vəziyyətdə deyil ki, orada sürətli qatar işləyə bilsin. Bakı-Yalama yolu ilə Qusar rayonuna gedən dəmir yolu bir layihədə öz həllini tapacaq. Bu da bizim planlarımızda var. Ona görə, istərdim ki, Azərbaycan ictimaiyyəti bunu bilsin.

**(2018-ci il yanvarın 10-da Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitqindən)**

# *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: “Tranzit yüklərin həcmi təxminən 30 faiz artıb”*



**“Əlbəttə ki, ölkəmizin həm beynəlxalq nüfuzu artır, imkanları artır, gəlirləri artacaq, biznes şəraiti yaxşılaşır. Energetika nəqliyyatla bərabər bundan sonra da bizim üçün əsas sektorlardan biri olacaq. Nəqliyyat sahəsində də artım var. Tranzit yüklərin həcmi təxminən 30 faiz artıb. Mən hələ 5 ayın nəticələrini deyirəm, 30 faiz artım çox böyük artımdır. Bəzi istiqamətlər üzrə, xüsusilə Şimal-Qərb nəqliyyat dəhlizi üzrə artım 300 faizdir. Bizim coğrafi yerləşməyimiz və yaradılmış infrastruktur, əlbəttə, imkan verir ki, biz çox önəmli tranzit ölkəsinə çevrilək. Onsuz da Azərbaycan üzərindən tranzit yüklərin daşınması hər il artır, amma bu il biz daha kəskin artım görürük. Əlbəttə, burada Zəngəzur dəhlizinin imkanları da nəzərə alınmalıdır. Ona görə biz Zəngəzur dəhlizinin yaradılmasına daha sürətlə çalışırıq.**

Nəqliyyat sektorunda görüləcək işlərlə bağlı hökumətə tapşırıqlar artıq verildi. Bir daha qeyd etmək istəyirəm, bizim gəmiqayırma zavodumuz tam gücü ilə işləməlidir, nə qədər imkanı varsa, o qədər də gəmi, tanker, bərə istehsal etməlidir. Bu zavodun imkanları gərək yenidən araşdırılsın. Mənə verilən məlumata görə, ildə 6 tanker - bərə, yük gəmisi istehsal oluna bilər. Baxmaq lazımdır ehtiyac nə qədərdir, Xəzəryanı ölkələrdə gəmilərin sayı nə qədər artacaq. Qonşu ölkələrlə bu məsələləri müzakirə etməliyik. Ola bilsin, biz qonşu Xəzər ölkələri ilə istehsal olunacaq gəmilərin növləri ilə bağlı hansısa razılığa gələk ki, eyni gəmi növlərini istehsal etməyək. Çünki Xəzər üzərindən yükdaşımaların həcminin artırılması artıq reallıqdır. İndiki şəraitdə biz buna hazırıq. Amma biz Beynəlxalq Dəniz Ticarət Limanının ikinci fazasına başlamalıyıq, limanı genişləndirməliyik. Mənə bu yaxınlarda verilən məlumata görə, artıq ərazimizdən keçən yükləri aşırmağa bizim imkanımız yoxdur. Çünki biz beynəlxalq ticarət limanını o vaxt olan yüklərə görə inşa etmişik, birinci fazasını başa çatdırmışıq. İndi tezliklə ikinci fazaya keçmək lazımdır. Hökumətə də tapşırıq verildi, nə lazımdırsa, onu edəcəyik. Dibdərinləşdirmə işləri də aparılmalıdır. Çünki Xəzərin suyunun səviyyəsi düşür. Ona görə gəmilərin daha sürətlə gedib-gəlməsi üçün yeni kanallar qazılmalıdır. Odur ki, dibdərinləşdirmə işləri də, bunlar da nəzərdə tutulur. Limanın genişləndirilməsi, yeni gəmilərin inşası, bütün bizim nəqliyyat qurumlarının vahid mexanizm kimi işləməsi. Çünki əvvəllər bu, yox idi, necə deyərlər, hərəsi yorğanı öz tərəfinə dartırdı. İndi gəmiçilik, liman, dəmir yolu bir mexanizm kimi işləməlidir və mən bunu hökumətə tapşırmışam. Baş nazirin rəhbərliyi altında indi müşavirələr keçirilib. Gələn ilin büdcəsi formalaşanda, əlbəttə ki, biz bu sahəni xüsusilə nəzərdə saxlamalıyıq. Çünki bu, bizim iqtisadi imkanlarımızı artıracaq, eyni zamanda, tranzit potensialı artacaq, iş yerləri yaradılacaq və biz - açıq dənizlərə çıxışı olmayan ölkə çox ciddi bir nəqliyyat-logistika mərkəzinə çevriləcəyik.

Əlbəttə ki, Qarabağda gedən işlərlə bağlı bir neçə kəlmə demək istərdim. Çox danışmaq istəmirəm, çünki hər şey göz qabağındadır. Bütün işlər plan üzrə gedir. İnfrastruktur işləri - artıq yaşayış binalarının inşasına başlanılıb, Ağalı kəndi istifadəyə verilib, beş şəhərin Baş planı təsdiqlənib, yeni yaradılacaq kəndlərin yerləri müəyyən edilib. Ola bilsin ki, biz bu il yeni kəndlərin inşası, yaradılması ilə məşğul olacağıq. Həmçinin tarixi abidələrin bərpası. Yəni, burada hər şey plan üzrə gedir. Qeyd etdiyim kimi, bu bölgə nəinki Azərbaycan üçün, dünya üçün nümunəvi bölgə olacaq. Biz hər şeyi planlı şəkildə edirik. Əlbəttə ki, tələsirik, amma, eyni zamanda, tələskənliyə yol vermirik. Bütün tender prosedurları keçməlidir, şəffaflıq tam təmin edilməlidir, orada heç bir inhisarçılıq olmamalıdır. Açıq tender prosedurları təmin edilir və ediləcək. İctimaiyyətə müntəzəm olaraq məlumat verilməlidir və veriləcək.

Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzurla bağlı işlər arasında ərzaq təhlükəsizliyi məsələləri də vacib məsələlərdəndir. Bu il bu problemlə nəinki biz, artıq bütün dünya üzləşib. İndi informasiya kanallarında, mətbuatda taxıl qıtlığı ilə bağlı geniş məlumat yayılır. Əfsuslar olsun ki, biz də taxılın idxalından böyük dərəcədə asılı olan ölkəyik. Bu asılılığı aradan qaldırmaq üçün indi proqram hazırlanıb. Həm azad edilmiş torpaqlarda, həm də ölkəmizin digər yerlərində biz vaxt itirmədən, tezliklə taxıl istehsalını artırmalıyıq və artıracağıq. Mənə verilən son məlumata görə, bu il heç vaxt istifadə olunmayan təqribən 100 min hektarda taxıl, yəni, buğda, arpa, dənli bitkilər əkiləcək. Bu da bizim ərzaq təhlükəsizliyimizi gücləndirəcəkdir.

Bir sözlə, yenə də deyirəm, bu gün mən görülmüş işlərin kiçik hissəsini işıqlandırdım. Amma bu da kifayətdir hər kəs görsün ki, nəhəng işlər görülür və qarşıda duran bütün vəzifələri icra edəcəyik”.

**(İyulun 15-də bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqindən)**



# *Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatı bitərəf ölkələrin güc mərkəzinə çevrilir*



**Öz işini uğurla başa vurmuş Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin “Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi” mövzusuna həsr olunan Bakı konfransı ərəb ölkələrinin politoloqları tərəfindən ətraflı təhlil edilir.**

AZƏRTAC xəbər verir ki, “Arab-news” qəzetinin Bakı konfransı ilə bağlı dərc etdiyi analitik məqalələrdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi yüksək qiymətləndirilib. Yazıda bildirilib ki, dünyada sülh, təhlükəsizlik və davamlı inkişafın təmin edilməsini dəstəkləyən Səudiyyə Ərəbistanı Bakı konfransında qlobal problemlərin həlli istiqamətində müzakirələrin dünyada yeni - bitərəf ölkələrin güc mərkəzinin yaranmasının təzahürü kimi qiymətləndirib.

Küveytin rəsmi KUNA agentliyi də qeyd edib ki, bu ölkənin Milli Assambleyasının spikeri Marzuq Al-Ğanimin Bakı konfransında çıxışına istinadla dünyanın bütün dünyada risklər qarşısında qanun və ədalətin bərqərar olmasına çağıran prinsipial bitərəf üçüncü səsə böyük ehtiyac olduğunu yazıb. Agentliyin məqaləsində diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev tədbirdəki çıxışında BMT-dən sonra ikinci ən böyük təsisat olan Qoşulmama Hərəkatının səsinin dünya miqyasında eşidilməsinin vacibliyini vurğulayıb və yeni təşəbbüslər irəli sürüb.

Ərəb mediası Bakı konfransında Fələstin probleminin həlli ilə bağlı çıxışlara, xüsusən Ərəb Parlamentinin spikeri Adel bin Əbdel Rəhman Al Asuminin çıxışına geniş yer ayırıb. Eyni zamanda, Yaxın Şərqin digər aktual məsələləri – Yəmən və Suriyada vəziyyətlə bağlı müzakirələr də geniş təhlil olunur. “Əl Xalec” nəşrinin şərhçisi Məhəmməd Yusif yazır ki, Yəmən parlamentinin vitse-spikeri Mohsen Basura öz ölkəsində sülhün bərqərar olmasında Qoşulmama Hərəkatının mühüm roluna ehtiyac olduğunu vurğulayıb.

Göründüyü kimi, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatı bitərəf ölkələrin qlobal güc mərkəzinə çevrilir. Siyasi şərhçilər bu təsisatın COVID-19 pandemiyası ilə mübarizədə olduğu kimi, hazırda dünyanı təhdid edən humanitar fəlakət və qlobal ərzaq böhranının qarşısının alınmasında da mühüm rol oynaya biləcəyi qənaətindədir. Misirin “Əl Hivar” Strateji Araşdırmalar və Media Mərkəzinin sədr müavini, professor Hişam Məqdi AZƏRTAC-a açıqlamasında bildirib ki, hazırda dünyada böyük güclərin, hərbi blokların və siyasi alyansların getdikcə artan qarşıdurması fonunda sülh çağırışlarına böyük ehtiyac duyulur. Onun sözlərinə görə, qlobal təhlükəsizliyin təmin edilməsi, Azərbaycan Prezidenti İlham Əliyevin Bakı konfransında söylədiyi kimi, ərazi bütövlüyü, suverenlik, müstəqillik, bir-birinin işlərinə müdaxilə etməmə prinsiplərinə bütün ölkələrin əməl etməsindən asılıdır. Müharibə, münaqişə və ədalətsizliyin qarşısının alınması da məhz bu amillərlə mümkündür. “Azərbaycanın sədrliyi dövründə yeni təşəbbüslərlə çıxış edən, qlobal problemləri diqqət mərkəzində saxlayan Qoşulmama Hərəkatının sülh və davamlı inkişaf naminə fəaliyyəti bu təsisatın tarixində presedenti olmayan bir hadisədir. Məhz bu səbəbdəndir ki, 44 günlük müharibə vaxtı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olan, Qoşulmama Hərəkatında təmsil olunan dövlətlər bəzi ölkələrin anti-Azərbaycan mahiyyətli bəyanatını bloklayıb, ermənipərəst qlobal qüvvələrin Azərbaycana qarşı hücumuna mane olublar”, - deyə politoloq vurğulayıb.

Ərəb politoloqlarının şərhlərində Azərbaycan Prezidenti İlham Əliyevin Bakı konfransındakı çıxışında BMT-nin və onun Təhlükəsizlik Şurası çərçivəsində islahatların aparılması məsələsini gündəmə gətirməsi yeni qlobal çağırışlar fonunda praqmatik fikir kimi təqdim edilib. İordaniyalı akademik Mərvan Suda ərəb KİV-də dərc olunmuş məqaləsində qeyd edib ki, Qoşulmama Hərəkatının sədri haqlı olaraq vurğulayıb ki, BMT qətnamələri icra edilmirsə, onları qəbul etməyin heç bir mənası yoxdur. “Prezident İlham Əliyev bu vacib məsələnin Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində müzakirə olunmasının və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin siyasi üstünlük əsasında icra edilməsinə son qoyulmasının zəruriliyini bildirdi. Bu aktual problemin həlli bütün dünyada, o cümlədən Yaxın Şərqdə sülhün və təhlükəsizliyin təmin edilməsinə töhfə verə bilər. Qlobal miqyasda kataklizmlərin qarşısının alınması təkcə bir neçə ölkənin, yaxud siyasi-hərbi alyansın deyil, bütün ölkələrin fəal iştirakı ilə mümkündür”, -deyə akademik qeyd edib.

Yaxın Şərq ölkələrinin politoloqları və strateji araşdırma mərkəzləri Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının yekunlarını Yəmən, Suriya, Fələstin, Liviya və digər ölkələrdə davam edən silahlı münaqişələrin nizama salınması istiqamətində mühüm addım kimi qiymətləndirib, bu çərçivədə parlamentlərin fəaliyyətinin gücləndirilməsini qlobal və regional sülhün təmin olunmasına töhfə olacağını qeyd ediblər.

## *Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyəti işğaldan azad olunmuş ərazilərə səfər edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, iyulun 5-də Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət heyətin işğaldan azad olunmuş ərazilərə növbəti səfəri baş tutub.

AZƏRTAC xəbər verir ki, Baş nazir və Prezident Administrasiyasının rəhbərinin başçılıq etdiyi heyət əvvəlcə Tərtər rayonunun Suqovuşan qəsəbəsində Vətən müharibəsi şəhidlərinin şərəfinə ucaldılmış abidəni ziyarət edib. Daha sonra "Suqovuşan-1" Su Elektrik Stansiyası və Suqovuşan su anbarına baxış keçirilib, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev və Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov tərəfindən Azərbaycan Prezidentinin tapşırıqları ilə bağlı görülən işlər barədə məlumatlar verilib. Daha sonra Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova Turizm İnkişaf Konsepsiyası ilə bağlı görülən işlər barədə məruzə edib.

"Azərişıq" ASC-nin sədri, Kanoe və Avarçəkmə Federasiyasının prezidenti Vüqar Əhmədov nümayəndə heyətinə icra edilən layihələr barədə ətraflı məlumat verib.

Heyət Suqovuşan qəsəbəsində turizm təyinatlı fərdi evlərdə aparılan təmir-bərpa işləri ilə də tanış olub. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görülən işlər barədə təqdimat edib.

Heyət üzvləri, həmçinin Tərtər rayonunun işğaldan azad edilən Talış kəndində olublar. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev kəndin hazırlanan layihəsi barədə, Dövlət Turizm Agentliyi sədrinin müavini Azadə Hüseynova kəndin dövlət başçısının son tapşırıqlarına uyğun olaraq tərtib olunan Turizm İnkişaf Konsepsiyası barədə məlumat veriblər.

Daha sonra Ağdam istiqamətində yola düşən heyət üzvləri Bərdə-Ağdam dəmir yolunun, eləcə də Bərdə-Ağdam, Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası avtomobil yollarının tikintisi işləri ilə tanış olublar, görülən işlər barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədr müavini Hicran Valehov və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov məruzələr ediblər.

Şahbulaq qalasında görülən işlərlə tanışlıq zamanı Şahbulaq Turizm Kompleksinin layihəsi barədə məlumat verilib. Daha sonra ANAMA-nın Ağdam mobil sahə düşərgəsinə yola düşən iştirakçılar düşərgə və minatəmizləmə işləri ilə tanış olublar.

Ağdam şəhəri ərazisində heyət üzvləri "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinə baxış keçirib, daha sonra iqtisadiyyat naziri Mikayıl Cabbarov Ağdam Sənaye Parkında görülmüş işlər barədə heyətə ətraflı məlumat verib.

Heyət üzvləri, həmçinin Ağdamda inşa olunan yaşayış kompleksinin tikinti işləri ilə də tanış olub.

Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Ağdam Cümə məscidində görülən işlər barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Fondun icraçı direktoru Anar Ələkbərov ətraflı məlumat verib. Daha sonra təhsil naziri Emin Əmrullayev heyəti Ağdamda 1 saylı tam orta məktəbdə aparılan tikinti işlərinin gedişatı ilə tanış edib.

Səfərin sonunda Baş nazir və Prezident Administrasiyasının rəhbərinin başçılıq etdiyi heyət Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olublar.

Səfər müddətində baxış keçirilən bütün yenidənqurma və bərpa işlərinin, habelə infrastruktur layihələrinin Prezident İlham Əliyevin tapşırıqlarına uyğun yerinə yetirilməsi istiqamətində aidiyyəti qurumların rəhbərlərinə müvafiq göstərişlər və tövsiyələr verilib.



## Nazir Rəşad Nəbiyev Beynəlxalq Daşımalar üzrə Hökumətlərarası Təşkilatın Baş katibi ilə görüşüb

**Dəmir Yolu ilə Beynəlxalq Daşımalar üzrə Hökumətlərarası Təşkilatın (OTIF) Baş katibi Volfqanq Küpper ölkəmizə səfərə gəlib.**



Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində Baş katib rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevlə görüşüb.

Görüşdə Azərbaycan – OTIF əməkdaşlığı, ölkəmizin nəqliyyat-tranzit imkanları və dəmir yolu sahəsində həyata keçirilən islahatlar müzakirə olunub.

Qonağa Zəngəzur Dəhlizinin bir hissəsi olan Horadiz–Ağbənd dəmir yolu xətti ilə bağlı məlumat verilib, layihənin regional əhəmiyyəti vurğulanıb. Eyni zamanda, beynəlxalq dəhlizlərin inkişafına yönəlmiş beynəlxalq layihələrdə iştirak və regional əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, iyulun 20-də Baş katib Volfqanq Küpperin işğaldan azad edilmiş ərazilərə səfər etməsi, o cümlədən Horadiz – Ağbənd dəmir yolu xəttinin tikintisi ilə tanış olması nəzərdə tutulur.

## Dəmir yolu üzrə beynəlxalq təşkilatın rəhbəri Horadiz – Ağbənd layihəsi ilə tanış olub

**Dəmir yolu ilə Beynəlxalq Daşımalar üzrə Hökumətlərarası Təşkilatın (OTIF) Baş katibi Volfqanq Küpper Azərbaycana səfəri çərçivəsində Füzuli rayonunun Horadiz şəhərində olub.**



Volfqanq Küpper Horadiz – Ağbənd dəmir yolu xəttində aparılan tikinti prosesi ilə tanış olub. Qonağa layihənin əhəmiyyəti və görüləcək işlər barədə məlumat verilib.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi tərəqqisi üçün xüsusi strateji əhəmiyyətə malik Horadiz – Ağbənd dəmir yolu xəttinin təməli ölkə Prezidenti cənab İlh am Əliyev tərəfindən ötən il fevralın 14-də qoyulub.




Qeyd olunub ki, layihə regionun tranzit potensialına mühüm təsir göstərəcək və daşımaların inkişafına töhfə verəcək.

Dəmir yolu xətti tək xətlidir və ox üzrə uzunluğu 110,4 km təşkil edir. Layihə çərçivəsində 8 stansiyanın (Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 453 ədəd süni mühəndis qurğusunun, 70 ədəd yoldəyişənin, 110.4 km rabitə və işarəvermə sisteminin tikintisi nəzərdə tutulur.

Əlavə edilib ki, dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi işləri 3 mərhələdə aparılır və 2023-cü ilin sonunda işlərin yekunlaşdırılması planlaşdırılır.

Hazırda dəmir yolu xəttinin ox üzrə 55 km hissəsi tamamlanıb. Həmçinin 59-cu və 70-ci km-lər arası ərazidə torpaq yatağı və süni mühəndis qurğularının tikintisi işləri aparılır.

3 mərhələdə intensiv şəkildə yerinə yetirilən layihələndirilmə və tikinti işləri minatəmizləmə prosesinə paralel davam etdirilir və hazırda yolun 101,5 km-dək ərazisi minalardan təmizlənib.

# "ARTtrain" adlı rəsm müsabiqəsi keçirilir




**Hörmətli həmkarlar!**

"Azərbaycan Dəmir Yolları" QSC "ARTtrain" adlı rəsm müsabiqəsi elan edir.

Müsabiqədə ADY-nin əməkdaşlarının, habelə sonuncu iş yeri ADY olub vəfat edən dəmiryolçuların 17 yaşadək olan övladları iştirak edə bilər.

Müsabiqə 01.08.2022-31.08.2022-ci il tarixlərində 6-9 yaş, 10-13 yaş, 14-17 yaş olmaqla 3 yaş kateqoriyası üzrə keçiriləcəkdir.

Müsabiqədə iştirak etmək istəyənlər rəsm işlərini 31.08.2022-ci il tarixinədək "Azərbaycan Dəmir Yolları" QSC-yə (Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi 230. Az 1010) göndərməli və yaxud təqdim etməlidir.

Qaliblər peşəkar rəssamlardan ibarət komissiya tərəfindən seçiləcək və 15.09.2022-ci il tarixinədək elan ediləcəkdir. Qaliblər ADY tərəfindən mükafatla təltif ediləcək.

**Müsabiqənin tələbləri:**

- Yaş həddi: 17 yaş (6-9, 10-13, 14-17 yaş aralığı);
- Mövzu: Dəmir yolu;
- Ölçü: A3 (29.7 x 42 sm);
- Rəsmlərin işlənmə texnikası: sərbəst (rəngkarlıq, qrafika, kollaj və s.).

Qeydlər:

- Hər bir iştirakçı müsabiqəyə yalnız bir rəsm işi təqdim edə bilər.
- Hər bir yaş qrupu üzrə ayrı olmaqla ümumilikdə 3 qalib müəyyən ediləcəkdir.
- ADY-nin sosial media hesabında paylaşılan rəsmlərdən ən çox bəyənilən rəsm əsərinin müəllifinə ayrıca hədiyyə təqdim ediləcəkdir. Bu nominasiya üzrə qalib yaş qrupları üzrə deyil, ümumilikdə nəzərə alınacaqdır.
- Müəllif haqqında məlumatlar (ad, soyad, ata adı, yaş, valideynlərin iş yeri və vəzifəsi/peşəsi) rəsmin arxa hissəsində qeyd edilməlidir.
- Sonuncu iş yeri ADY olmaqla vəfat etmiş dəmiryolçuların övladlarının rəsm işini ərsəyə gətirmə xərcləri ADY tərəfindən qarşılanacaqdır. Bunun üçün həmin uşaqların özlərinin, yaxud onların yaxınlarının hr.career@ady.az elektron poçt ünvanına müraciət etmələri xahiş olunur.
- Müsabiqəyə göndərilən rəsmlər geri qaytarılmır.

**Hörmətlə,**

**"Azərbaycan Dəmir Yolları" QSC, İnsan resursları idarəsi**

# Abşeron dairəvi dəmir yol xəttinin bütün stansiyalarında 91 ədəd kart oxuyucu qurğu quraşdırılıb




**Nəqliyyat sektorunda nağdsız ödənişlərinə keçidin təşviq edilməsi məqsədilə Mərkəzi Bank, "Azərbaycan Dəmir Yolları" QSC, "Visa" beynəlxalq kart təşkilatı və "Azərbaycan Beynəlxalq Bankı" ASC arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində icrasına 2020-ci ildə start verilmiş "Ölkənin dəmir yollarında gediş haqlarının təmassız bank kartları ilə ödənilməsi" layihəsi çərçivəsində Abşeron dairəvi dəmir yol xəttinin bütün stansiyalarında ümumilikdə 91 ədəd kart oxuyucu qurğu quraşdırılıb.**

AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, altı ayda sərnişinlər tərəfindən dəmir yollarında təmassız bank kartları vasitəsilə həyata keçirilən ödənişlərin sayı 206.5 min ədəd, həcmi isə 170.4 min manat təşkil edib. Bununla yanaşı, "MasterCard" beynəlxalq kart təşkilatının cəlbi ilə Şamaxı şəhər nəqliyyatında reallaşdırılmış pilot layihə çərçivəsində gediş haqlarının bank kartları ilə nağdsız qaydada ödənilməsi imkanı yaradılıb. Hesabat dövründə müvafiq layihə üzrə nağdsız ödənişlərin sayı 693 min ədəd, həcmi isə 262 min manat olub. Bakı şəhərində nəqliyyatda gediş haqlarının ödənilməsi üçün istifadə edilən "BakıKart"ın balansının artırılması məqsədilə hesabat dövründə həyata keçirilən nağdsız ödənişlərin sayı 550 min ədəd, həcmi isə 1.76 milyon manat təşkil edib.



# "Azərbaycan Dəmir Yolları" QSC-nin əməkdaşı Elkiyar Ziyadov "Yüksəliş" müsabiqəsində qalib adını qazanıb



**"Azərbaycan Dəmir Yolları" QSC-nin əməkdaşı Elkiyar Ziyadov "Yüksəliş" müsabiqəsinin bütün sınaqlarından uğurla keçərək qalib adını qazanıb.**

Elkiyar Ziyadov 1990-cı ildə anadan olub. O, 2007 – 2011-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında İnzibati idarəetmə ixtisası üzrə bakalavr dərəcəsində təhsil alıb və fərqlənmə diploma ilə ali məktəbi başa vurub. 2012-ci ildə Böyük Britaniyanın "Glasgow" Universitetində Marketinq Menecment üzrə magistr dərəcəsi əldə edib.

E.Ziyadov 2019-cu ildə "Xəzər" Universitetinin Dünya İqtisadiyyatı fakültəsində təhsilini doktorantura pilləsi üzrə davam etdirib və hazırda elmi dərəcə almaq üçün müdafiə mərhələsindədir.

Əmək fəaliyyətinə 2013-cü ildə SOCAR-da başlayıb və sözügedən qurumun strukturlarında müxtəlif vəzifələrdə çalışıb. 2018-2021-ci illərdə isə SOCAR-ın Sərmayələrdə Beynəlxalq Layihələrin Kommersiya Fəaliyyətinə nəzarət şöbəsinin rəisi vəzifəsində işləyib. E.Ziyadov 2021-ci ilin noyabr ayından etibarən "Azərbaycan Dəmir Yolları" QSC-nin Marketinq İdarəsinin Biznesin inkişafı şöbəsinin rəisi vəzifəsində çalışır. 2018-ci ildən bu yana Azərbaycan Dövlət İqtisad Universitetində Maliyyə Modelləşdirməsi və Proqnozlaşdırma fənni üzrə dərs deyir. Həmkarımızı bu uğur münasibəti ilə təbrik edir və ona karyerasında müvəffəqiyyətlər arzulayırıq.

# Bakı-Gəncə-Bakı sürətli sərnişin qatarına onlayn rejimdə elektron bilet alan sərnişinlərin kassaya yaxınlaşmasına ehtiyac olmayacaq




**"Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) rəsmi saytından Bakı-Gəncə-Bakı istiqaməti üzrə hərəkət edən sürətli sərnişin qatarına 10 avqust 2022-ci il tarixindən etibarən onlayn rejimdə alınmış biletlər artıq avtomatik olaraq elektron qeydiyyatdan keçirilir. Bununla da sərnişinlərin gediş-gəliş biletini onlayn sifariş etdikdən sonra kassalara yaxınlaşmasına ehtiyac qalmır.**

Sərnişinlərin elektron biletlərinin (mobil elektron cihazlarda və ya çap olunmuş şəkildə kağız daşıyıcılarda) qeydiyyatı qatara minik zamanı xüsusi aparat vasitəsilə sərnişin vaqonunun bələdçiləri tərəfindən yoxlanılacaq. Elektron biletin satışı qatarın yola düşməsinə 1 saat qalmış dayandırılır, lakin sərnişinlər bilet kassasına yaxınlaşaraq əvvəlki qaydada gediş biletini əldə edə bilərlər. Qatarın yola düşməsinə 1 saatdan çox vaxt qaldıqda sərnişin bileti şəxsi kabinetindən geri qaytarma qaydalarına əsasən geri qaytara bilər.

Yaşı 18-dən yuxarı olan sərnişinlərdən qatara minik zamanı şəxsiyyəti təsdiq edən sənədi (şəxsiyyət vəsiqəsi, ümumvətəndaş pasportu, hərbi bilet, şəxsiyyəti müvəqqəti təsdiq edən digər sənəd), eləcə də peyvənd əks-göstəriş və ya immunitet sertifikatı, 16 yaşadək sərnişinlərdən (uşaqlardan) isə doğum haqqında şəhadətnamə və ya şəxsiyyət vəsiqəsi təqdim etmələri tələb olunur.

Sərnişinlərə qatarın yola düşməsinə 30 dəqiqə qalanadək minik stansiyası və dayanacaqlara gəlmələri tövsiyə edilir. Bu, sərnişinlərin gediş sənədlərinin (elektron biletlərinin), peyvənd, əks-göstəriş və ya immunitet sertifikatlarının yoxlanışı prosedurunun tezləşdirilməsi, sərnişinlərin qatara gecikməsinin qarşısını alınması və qatarın qrafik üzrə hərəkət etməsi məqsədini daşıyır.

ADY sərnişinlərə verilən onlayn xidmətlərin daha da təkmilləşdirilməsi istiqamətində işləri davam etdirir. Yaxın zamanda ADY-nin istifadəyə verəcəyi yeni mobil tətbiqi vasitəsilə də elektron bilet almaq mümkün olacaq.

Elektron bilet almaq üçün ADY-nin rəsmi səhifəsinə keçid edə və ya elektron bilet satışı, vaksin sertifikatına dair qaydalarla tanış ola bilərsiniz.

Qeyd edək ki, sərnişinlər avqust ayının 10-na qədər onlayn alınan biletlər üçün əvvəlki qaydada kassaya yaxınlaşaraq kağız biletlər almalıdır.

# *Türkiyədə fəaliyyət göstərən dərnəklər və media qurumları Azərbaycanın Londondakı səfirliyinə hücumla bağlı birgə bəyanat yayıblar*

**Türkiyədə fəaliyyət göstərən Azərbaycan, Türkiyə və Pakistan dərnəkləri, eləcə də media qurumları ölkəmizin Londondakı səfirliyinə edilən hücumla bağlı birgə bəyanat yayıblar.**



Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin "Karabakh is Azerbaijan" Milli Platformasının Türkiyə koordinatorluğundan AZƏRTAC-a verilən məlumata əsasən, bəyanat adıçəkilən qurum, Qarabağ Azərbaycandır Koordinasiya Dərnəyi, Bursa Arena E-Xəbər, RUBASAM Strateji Araşdırmalar Mərkəzi, Milliyyətçi Həkimlər Dərnəyi, Dünya Avşarlar Dərnəyi, 7 Türk Birliyi E xəbər saytı, İstanbul Türkiyə-Azərbaycan Dərnəyi (İSTAD), TÜRKFAM -Türkşünaslıq və İntellektual Araşdırmalar Mərkəzi, Anadolu Aydınlar Ocağı, Türkiyə-Azərbaycan Nəhəng Qardaşlıq, Dostluq və Strategiya Platforması, Türkiyədəki Pakistanlı Tələbələr Dərnəyinin imzası ilə yayımlanıb.

Bəyanatda deyilir: "Azərbaycanın Londondakı səfirliyinə hücum olub. Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyi radikal dini qrup tərəfindən hücuma məruz qalıb. Radikal dini vandalizm qrupunun üzvləri səfirliyin binasına daxil olaraq Azərbaycan bayrağını endirib, binanın eyvanında dini bayraqlar qaldırıb və radikal dini şüarlar səsləndiriblər. Yerli polisin müdaxiləsindən sonra qrup üzvləri binadan çıxarılaraq saxlanılıb.

Bu hadisə diplomatların və diplomatik binaların təhlükəsizliyini açıq şəkildə xələl yetirən, Vyana Konvensiyasına zidd vandalizm aktıdır.

Dünya mədəniyyətinin mərkəzi hesab edilən Avropanın ortasında Azərbaycan səfirliyinə qarşı edilən bu hücumu, o cümlədən milyonlarla insanın uğrunda canını qanını fəda etdiyi Azərbaycan bayrağına qarşı törədilən bu xain terroru şiddətlə qınayır, sözügedən hadisənin dərindən araşdırılmasını tələb edirik".

## *Özbəkistan XİN Azərbaycanın Londondakı səfirliyinə hücumu pisləyib*



**Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi avqustun 4-də Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə qarşı törədilmiş təxribat xarakterli hücumu pisləyən bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, bəyanatda Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyinin avqustun 4-də Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə qarşı törədilmiş təxribat xarakterli hücumu qətiyyətlə pislədiyi bildirilib.**

"Biz diplomatik nümayəndəliklərin üzvlərinin həyatı və sağlamlığı üçün təhlükə yaradan hər hansı hərəkəti qətiyyən yolverilməz hesab edirik.

Biz bu hadisənin hərtərəfli araşdırılmasına və bu işdə əli olan bütün şəxslərin məsuliyyətə cəlb edilməsinə çağırırıq.

Özbəkistan tərəfi xaricdəki vətəndaşlarının təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsində qardaş Azərbaycana dəstəyini ifadə edir", - deyə bəyanatda qeyd olunub.

## *Qazaxıstan XİN Azərbaycanın Londondakı səfirliyinə hücumu pisləyən bəyanat yayıb*



**Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyi avqustun 4-də Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə qarşı törədilmiş təxribat xarakterli hücumu pisləyən bəyanat yayıb.**

AZƏRTAC xəbər verir ki, bəyanatda Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyinin avqustun 4-də Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə qarşı törədilmiş təxribat xarakterli hücumu qətiyyətlə pislədiyi bildirilib: "Avqustun 4-də ekstremistlərin Azərbaycan Respublikasının Londondakı səfirliyinə hücumu ilə əlaqədar olaraq, diplomatik nümayəndəliyə və onun əməkdaşlarına qarşı istənilən zorakılığı qəbuledilməz hesab edirik.

Beynəlxalq hüququn prinsiplərinin və normalarının pozulması aktları ümumilikdə pislənməlidir və təşkilatçıların məsuliyyətə cəlb edilməsi məqsədilə hərtərəfli araşdırma aparılmalıdır.

Azərbaycan xalqının sarsılmazlığına inanırıq və qardaş dövlət üçün çətin vəziyyətlərdə hərtərəfli dəstək verməyə hazır olduğumuzu bildiririk", - deyə bəyanatda qeyd olunub.



## Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan Anlaşma Memorandumu Yaponiya KİV-in diqqət mərkəzindədir

**Bakıda imzalanan Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu Yaponiya kütləvi-informasiya vasitələrinin (KİV) tərəfindən geniş işıqlandırılıb.**




AZƏRTAC xəbər verir ki, Yaponiyanın nüfuzlu NHK telekanalı, Kyodo News və JIJI PRESS agentlikləri, "Nikkei" qəzeti, "ajmedia.jp" portalı və digər mətbu orqanları sənədin Aİ ölkələri üçün böyük əhəmiyyət daşıdığını vurğulayıblar.

Yapon və ingilis dilində yayılan məqalələrdə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın artıq 15 ilə yaxın tarixi olduğu qeyd edilir. Gürcüstan və Türkiyə üzərindən keçməklə Avropaya çatdırılan Azərbaycan neftinin və qazının həmin ərazidəki ölkələrin enerji təminatı üçün əhəmiyyəti böyükdür.

Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen Aİ-nin şaxələndirilmiş enerji təminatı və bu işdə Azərbaycanı etibarlı tərəfdaş kimi yüksək qiymətləndirməsi yazılarda xüsusi ilə vurğulanır. Aİ rəsmisinin Azərbaycanın bərpaolunan enerji sahəsində də çox böyük potensiala malik olduğunu qeyd etməsi məqalə və yazılarda öz əksini tapır.

Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdə xüsusilə dənizdə külək enerjisi və yaşıl hidrogen enerjisi ilə bağlı müzakirələrin aparıldığını vurğulayan Ursula Fon der Lyayenin sözlərindən yazılarda sitat gətirilib: "Bu gün imzalanan Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu ilə biz bu sahədə möhkəm əməkdaşlıq üçün güclü zəmin yaratmış olduq. Bununla da Azərbaycan tədricən Avropa İttifaqının neft və qaz təchizatçısından daha çox etibarlı bərpaolunan enerji təchizatçısına çevriləcək".

## Azərbaycan ilə Aİ arasında imzalanan Anlaşma Memorandumu ərəb mətbuatında geniş işıqlandırılıb

Qlobal enerji böhranının dərinləşdiyi bir şəraitdə Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ərəb mətbuatının diqqət mərkəzindədir.

Əlcəzairin rəsmi APS agentliyi və "Əl Hərir" portalında AZƏRTAC-ın xəbərinə istinadla Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin bü mühüm sənədi imzaladıqları, həmçinin liderlərin mətbuata bəyanatlarla çıxış etmələri barədə materiallar yayımlanıb.





Küveytin rəsmi KUNA agentliyi, "Al Arabia", "CNBC Arabia" "SkyNews Arabia" telekanalları, Misirin "Əl Əhram", "Cümhuriyyə", "Dustur", "Əl Masr Əl Yom" qəzetləri, həmçinin BƏƏ-nin "Aşarq", "Royah" nəşrləri də qlobal enerji təhlükəsizliyi baxımından bu mühüm hadisə haqqında xəbər və reportajlar yayımlayıb.

Məqalələrdə qey d olunur ki, Prezident İlham Əliyev 3500 kilometr uzunluğu olan Cənub Qaz Dəhlizi boru kəmərləri sistemi ilə Azərbaycan qazının Avropaya nəql edildiyini, iki ildən az müddətdə bu dəhlizin tam gücü ilə işlədiyini diqqətə çatdırıb. Azərbaycan Prezidenti tərəflər arasında enerji sahəsində uzunmüddətli və etibarlı əməkdaşlığı böyük nailiyyət kimi qiymətləndirib.

Daha sonra bildirilib ki, Ursula Fon der Lyayen Azərbaycandan Aİ-yə ixrac olunan qazın həcminin ikiqat artacağını, Memorandumda Aİ-nin öz üzərinə Cənub Qaz Dəhlizinin genişləndirilməsinə dair öhdəlik götürməsini, bir neçə il ərzində onun ötürücülük qabiliyyətinin 20 milyard kubmetrə çatdırılacağını və gələn ildən qazın nəqlinin 12 milyard kubmetrə çatacağını qeyd edib.

# Bakı-Gəncə-Bakı istiqamətində hərəkət edən qatarda mövsümi endirim kampaniyasına başlanılıb

**"Azərbaycan Dəmir Yolları" QSC Bakı-Gəncə-Bakı istiqamətində hərəkət edən qatarda mövsümi endirim kampaniyasına start verib.**



QSC-dən AZƏRTAC-a bildirilib ki, bu gündən etibarən üç ay müddətində sözügedən marşrut üzrə standart yerlər üçün satılan biletlərin qiymətində 25 faizlik endirim tətbiq olunur.

Kampaniya çərçivəsində sərnişinlər standart (ekonom) yerlər üçün 15 manat ödəyərək səfər edə biləcəklər. Biznes və birinci klass yerlərə gediş haqqı dəyişilmədən saxlanılır.

Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə qatar gündəlik fəaliyyət göstərir. Bakıdan 08:00-da yola düşən və Gəncəyə 11:40-da çatan qatar həmin gün 18:00-da Gəncədən çıxır və 21:35-də Bakıda olur. Gəncə istiqamətində yolda olma müddəti 3 saat 40 dəqiqə, Bakıya dönüşdə isə 3 saat 35 dəqiqə təşkil edir.

Bilet alışı zamanı yaşı 18-dən yuxarı olan sərnişinlərdən peyvənd sertifikatı, əks-göstəriş sertifikatı və ya immunitet sertifikatı tələb olunur.

# Polad Həşimov və İlqar Mirzəyevin şəhid olmasından iki il ötür



**General-mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin şəhid olmasından iki il ötür.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Silahlı Qüvvələrinin bu iki hərbçisi 2020-ci il iyulun 12- 17-də baş verən Tovuz döyüşləri zamanı müdafiənin ön xəttində qəhrəmancasına şəhid olublar.

İyulun 14-də səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutub. Düşmənin təxribat xarakterli hücumu nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovniki İlqar Mirzəyev və həmçinin daha beş hərbi qulluqçu şəhid olub. Ermənistanın hərbi birləşmələrinin hücumları nəticəsində rayonun Ağdam kənd sakini də həlak olub.

Qeyd edək ki, Polad Həşimov 1975-ci ildə Qəbələ rayonunun Vəndam qəsəbəsində anadan olub. 1976-cı ildə Həşimovlar ailəsi Qəbələ rayonundan Sumqayıt şəhərinə köçüb və burada yaşamağa başlayıblar. P.Həşimov Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun komandir müavini - Qərargah rəisi olub.

Bakıda, Sumqayıtda və Qəbələdə küçələrdən birinə Polad Həşimovun adı verilib. Bundan başqa, Türkiyənin Osmanqazi rayonunda Polad Həşimovun adını daşıyan park salınıb.

İlqar Mirzəyev isə 1973-cü ildə Gürcüstanın Qardabani rayonunda anadan olub. O, Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun artilleriya rəisi vəzifəsində çalışıb.

Prezident İlham Əliyevin 2020-ci ilin dekabrın 9-da imzaladığı Sərəncamla Polad Həşimova və İlqar Mirzəyevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.




Redaktor:
Vasif SÜLEYMAN

Yaradıcı heyət:
Gülnaz ƏLİYEVA (redaktor )
Elbariz Məmmədli (müxbir)
Zahid Qurbanov (fotoqraf

Ünvanımız:Bakı, Azd 371010. D. Əliyeva küçəsi, 230.
"Azərbaycan Dəmir Yolları" QSC
Telefonlar: 499-43-19; 499-63-91
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə uyğun gəlmə yə bilər.
Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş,
"Tuna" Nəşriyyat və Poliqrafiya MMC-nin mətbəəsində çap olunmuşdur

Lisenziya ABN 022560.
Qeydiyyat nömrəsi B 360
Bizim materiallardan istifadə edərkən qəzetə istinad edin.
www.ady.az
Sayı 600. Sifariş